AZƏRBAYCAN RESPUBLİKASI
KƏND TƏSƏRRÜFATI NAZİRLİYİ

AQRAR TƏDQİQATLAR MƏRKƏZİ

# AZƏRBAYCANDA XİYAR İSTEHSALI İLƏ BAĞLI

# A R A Y I Ş



Bakı – 2021

# MÜNDƏRİCAT


1. **Sahə, istehsal və məhsuldarlıq göstəriciləri ..... 3**
2. **Qiymət göstəriciləri ..... 5**
3. **İdxal və ixrac göstəriciləri ..... 7**
4. **Qlobal istehsal, idxal və ixrac göstəriciləri ..... 8**

# 1. Sahə, istehsal və məhsuldarlıq göstəriciləri

- 2020-ci ildə açıq və örtülü torpaqlar üzrə xiyarın əkin sahəsi 2015-ci ilə nisbətən 21.1%, 2019-cu ilə nisbətən isə 2.4% azalaraq 10.97 min hektar olub *(Qrafik 1)*.
- 2020-ci ildə xiyarın əkin sahələrinin 92.4%-i (10.1 min ha) açıq, 7.6%-i (0.8 min ha) isə örtülü torpaqların payına düşüb *(Qrafik 1).*

**Qrafik 1. Azərbaycanda xiyarın əkin sahəsi, min ha**




***Mənbə: Dövlət Statistika Komitəsi***

- 2020-ci ildə xiyar istehsalı 2015-ci ilə nisbətən 1.6%, 2019-cu ilə nisbətən isə 8.8% azalaraq 226.9 min ton olub *(Qrafik 2).*
- 2020-ci ildə xiyar istehsalının 79.1%-i açıq, 20.9%-i isə örtülü torpaqların payına düşüb *(Qrafik 2).*

**Qrafik 2. Azərbaycanda xiyar istehsalı, min ton**




***Mənbə: Dövlət Statistika Komitəsi***

2020-ci ildə istehsal olunan xiyarın 11.9%-i Şəmkirin, 11.8%-i Naxçıvan Muxtar Respublikasının, 9.0%-i Sabirabadın, 6.3%-i Lənkəranın, 5.1%-i Balakənin, 4.3%-i Masallının, 3.6%-i Xaçmazın, 3.6%-i Salyanın, 3.3%-i Kürdəmirin, 3.0%-i Ağdaşın payına düşüb *(Qrafik 3).*

**Qrafik 3. Əsas istehsalçı rayonlarda məhsul yığımı, min ton**




***Mənbə: Dövlət Statistika Komitəsi***

2020-ci ildə xiyarın açıq torpaqlarda məhsuldarlığı 2015-ci ilə nisbətən 4.3%, 2019-cu ilə nisbətən isə 0.9% artaraq 161.7 sent/ha olub *(Qrafik 4).*

**Qrafik 4. Xiyarın məhsuldarlıq göstəriciləri, sent/ha**




***Mənbə: Dövlət Statistika Komitəsi***

2020-ci ildə Masallı, Xaçmaz, Şəmkir, Ağdaş, Lənkəran və Balakən rayonlarında məhsuldarlıq ölkə üzrə orta göstəricidən yüksək olub *(Qrafik 5).*

**Qrafik 5. Xiyarın əsas istehsalçı rayonlarda məhsuldarlığı, sent/ha**




***Mənbə: Dövlət Statistika Komitəsi***

## 2. Qiymət göstəriciləri

Daxili bazarda topdan satış qiymətləri mövsümdən asılı olaraq Melit xiyarı üzrə 0.25-3.32 AZN/kq, Patron xiyarı üzrə 0.35-4.87 AZN/kq, Yelpənək xiyarı üzrə 0.28-2.40 AZN/kq arasında dəyişib *(Qrafik 6,7,8).*

**Qrafik 6. Melit xiyarının topdan satış qiymətləri, AZN/kq**




***Mənbə: aqrarbazar.az***

## Qrafik 7. Patron xiyarının topdan satış qiymətləri, AZN/kq




***Mənbə: aqrarbazar.az***

## Qrafik 8. Yelpənək xiyarının topdan satış qiymətləri, AZN/kq




***Mənbə: aqrarbazar.az***

## 3. İdxal və ixrac göstəriciləri

- 2015-2020-ci illərdə Azərbaycana xiyar idxalı 5.0 dəfə azalaraq 2.1 min olub. Müqayisə olunan dövr ərzində ölkədən xiyar ixracı isə 1.4 dəfə artaraq 4.9 min ton olub *(Cədvəl 1).*

**Cədvəl 1. Xiyarın idxal və ixrac həcmi**

| | İdxal | | İxrac | |
|---|---|---|---|---|
| | miqdarı, ton | məbləği, min ABŞ dolları | miqdarı, ton | məbləği, min ABŞ dolları |
| **2015** | 10,707.2 | 3,345.7 | 6,753.3 | 6,596.3 |
| **2016** | 4,613.1 | 2,330.2 | 15,095.3 | 13,648.5 |
| **2017** | 5,336.9 | 2,772.2 | 11,924.1 | 10,716.1 |
| **2018** | 3,842.0 | 1,990.7 | 9,810.8 | 9,094.1 |
| **2019** | 2,037.9 | 1,124.8 | 6,966.6 | 7,371.2 |
| **2020** | 2,137.2 | 1,175.5 | 4,948.3 | 7,298.8 |

***Mənbə: Dövlət Gömrük Komitəsi***

- 2020-ci ildə Azərbaycandan xiyar ixracının 99.3%-i Rusiya bazarının payına düşüb *(Cədvəl 2).*

**Cədvəl 2. Azərbaycandan xiyar ixracının ölkələr üzrə bölgüsü**

| | 2017 | | 2018 | | 2019 | | 2020 | |
|---|---|---|---|---|---|---|---|---|
| | Miqdar, ton | Məbləği, min ABŞ dolları | Miqdar, ton | Məbləği, min ABŞ dolları | Miqdar, ton | Məbləği, min ABŞ dolları | Miqdar, ton | Məbləği, min ABŞ dolları |
| Rusiya | 11,816.1 | 10,683.9 | 9,651.3 | 8,991.9 | 6,916.4 | 7,353.8 | 4,910.1 | 7,271.6 |
| Polşa | - | - | 116.4 | 91.5 | 18.7 | 10.1 | 38.0 | 27.2 |
| Digər | 108.0 | 32.3 | 43.1 | 10.7 | 31.6 | 7.3 | 0.1 | 0.1 |
| **Cəmi ixrac** | **11,924.1** | **10,716.1** | **9,810.8** | **9,094.1** | **6,966.6** | **7,371.2** | **4,948.3** | **7,298.8** |

***Mənbə: Dövlət Gömrük Komitəsi***

# 4. Qlobal istehsal, idxal və ixrac göstəriciləri

FAO-nun məlumatına əsasən 2019-cu ildə dünya üzrə 87.8 milyon ton xiyar istehsal olunub. Dünya üzrə istehsal olunan xiyarın 80.0%-i və ya 70.3 milyon tonu Çinin payına düşüb *(Qrafik 9).*

**Qrafik 9. Xiyarın qlobal istehsal göstəriciləri, milyon ton**




**Mənbə: Faostat.org**

2019-cu ildə qlobal bazarda xiyar idxalının həcmi 2.8 milyon ton və ya 2.7 milyard ABŞ dolları olub *(Qrafik 10).*

**Qrafik 10. Qlobal bazarda xiyar idxalının həcmi**




**Mənbə: Trademap.org**

2019-cu ildə dünya üzrə xiyar idxalının 60%-dən çoxu ABŞ (34.7%), Almaniya (19.0%) və Birləşmiş Krallığın (6.7%) payına düşüb *(Qrafik 11).*

**Qrafik 11. 2019-cu ildə dünyada əsas xiyar idxalçılarının faiz bölgüsü**




***Mənbə: Trademap.org***

2019-cu ildə xiyarın 1 tonunun dünya üzrə orta idxal qiyməti 952 ABŞ dolları olub *(Qrafik 12).*

**Qrafik 12. Dünya üzrə xiyarın orta idxal qiyməti, ABŞ dolları/ton**




***Mənbə: Trademap.org***

Xiyar ixracında İspaniya (25.9%), Meksika (21.3%), Hollandiya (19.7%), Kanada (10.7%) və ABŞ (2.5%) ilk beşlikdədir. Qlobal bazarda xiyar ixracı üzrə Azərbaycanın payı 0.28% təşkil edib.

**Kənd Təsərrüfatı Nazirliyi tabeliyində**

**Aqrar Tədqiqatlar Mərkəzi**

**tərəfindən hazırlanıb**


## Əlaqə:

(+994 12) 599-08-88

www.atm.gov.az

info@atm.gov.az

Nizami küçəsi, 92
AZ 1010 Bakı, Azərbaycan


AQRAR TƏDQİQATLAR MƏRKƏZİ